**AZƏRBAYCAN ELM FONDU**

**Azərbaycan Elm Fondunun**
**"Qarabağ Azərbaycandır!" məqsədli qrant**
**müsabiqəsinin (AEF-MQM-QA-1-2021-4(41) qalibi**
**olmuş layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 7-ci mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **İşğaldan azad olunmuş ərazilərdə davamlı turizmin təşkili istiqamətləri və iqtisadi səmərəliliyinin qiymətləndirilməsi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əhmədov Rəşad İsmayıl oğlu**
Layihənin nömrəsi: **AEF-MQM-QA-1-2021-4(41)-8/06/2-M-06**
Müqavilənin imzalanma tarixi: **16 noyabr 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 dekabr 2022-ci il - 01 dekabr 2024-cü il**
*Layihənin **VII mərhələ** üzrə (rüb) məbləği: :*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | *(burada doldurmalı)*<br>Lahiyənin cari rüb üzrə lahiyə çərçivəsində davamlı turizmin təşkili istiqamətləri və klasterlərin yaradılması, onların rəqabət imkanlarının qiymətləndirilməsini əhatə edən araşdırmalardan ibarət olmuşdur. Tədqiqat ərazisində formalaşacaq turizm klasterləri üzrə zonaların təhlili aparılmış və ekoloji, sağlamlıq, qış, mədəni, eko-mədəni, icma və aqro, tədbir, istirahət-sağlamlıq, açıq hava turizm klasterlərinin formalaşması üçün ərazilər seçilmiş və çox kriteriyalı qiymətləndirmə əsasında rəqabət imkanları müəyyən edilmişdir.<br>Region üçün təklif olunan turizm klasterləri əvvəlki tədqiqatlar üzrə müəyyən olunan TRZ daxilində, həmçinin ayrıca klasterlər kimi araşdırılmışdır. Tədqiqat regionu üzrə təklif olunan turizm klasterlərin qısa səciyyəsini aşağıdakı kimi vermək mükündür:<br>1.Ekoloji, açıq hava və eko-mədəni turizm klasterləri. Beynəlxalq turizmdə ekoloji və açıq hava turizm fəaliyyətləri ümumi turist axınlarının 25-30% təşkil edir ki, bu da ölkələr arasında rəqabətin yüksək olmasına əsaslanır. Azərbaycanda isə ümumi turizmdə iştirak edənlərin 2,5-3% ekoloji turizmin payına düşür ki, bu göstərici aşağı olduğun qeyd etmək olar. Regionda ekoloji və açıq hava turizm fəaliyyətlərinin təşkili üçün zəngin təbii və mədəni irs resurslarına malikdir. Çox kriteriyalı qiymətləndirmə əsasında Kəlbəcər, Laçın, Şuşa, Xocavənd, Ağdərə, |

Qubadlı və Zəngilan rayonlarında ekoloji, açıq hava turizm klasterlərin müəyyən edilmişdir. Belə ki, Kəlbəcər rayonunda ekoloji və açıq hava turizm klasterləri Zülfüqarlı, Zar, Dəmirçidam, Seyidlər, Qaraxançallı, Başlıbel, Zalxa, Böyük və Kiçik Alagöllərin sahillərin qeyd etmək olar. Bunlardan açıq hava turizm fəaliyyətləri üçün Dəmirçidam ətrafında şəlalələr, kanyonlar, geniş meşə landşaftı, hündürlüyü dəniz səviyyəsindən 2500 m çatan dağ zirvələri, iki dağlıq plato və dağ çəmənliklərin daha cəlbedici ərazilərdən sayılır. Eyni zamanda, Dəmirçidam kəndi ətrafındakı yamaclarda qış turizminin təşkili üçün əlverişlidir.

Regionda ekoloji və açıq hava turizm üçün əlverişli destinasiyalara Laçın rayonunda Minkənd, Pircahan, Ağbulaq və Fərcan kəndlərinin ətrafı, Çalbayır silsiləsi, Qırxqız dağlarının ərafı xüsusilə seçilir. Həmçinin, Şəlvə və Həkəri çaylarının orta axarında raftiq turizminin təşkili üçün əlverişlidir. Qeyd olunan ərazilərdə, turist cığırları, dağ gəzintiləri, speloturizm, foto ovçuluq, kanyonuk, zıplain, parafaliq kimi açıq hava turizmi üçün əlverişli təbii şəraitə malikdir.

Şuşa rayonun ekoloji və açıq hava turizminin təşkili üçün əlverişli imkanlara malikdir. Rayon ərazisində Zarıslı çayının ərafında kanyonik, Cıdır düzündə parafaliq, zıplain, Daşaltı kəndinin ətrafında təbiət ərazilərdə gəzintilər, speleoturizm və s. turizm növlərinin təşkili üçün əlverişli hesab edilir. Sarıbaba dağı və Xəlfəli çay dərəsində haykinq və trekkinqlər üçün əlverişlidir. Şuşa rayonun təbiət və rekreasiya turizminin təşkili unikal təbii şəraitə malikdir.

Xocavənd rayonunda Tuğ, Böyük Tağlar, Azıx kəndləri, Hadrut qəsəbəsi və ətraf əraziləri, Ziyarət və Ərgünəş dağının ətrafı speloturizm, dağ turizmi, haykinq və trekkinq marşrutları, dağa dırmanma və s. turizm növlərinin inkişafı üçün əlverişli olması tədqiqatlar nəticəsində müəyyən edilmişdir.

Ağdərə rayonunda Vəng, Suqovuşan, Heyvalı, Ağdaban kəndlərinin ətrafı, Xocayurd dağları, Sərsəng su anbarının ətrafı turizm baxımından əlverişli ərazilərdən sayılır. Zəngin təbii-iqlim şəraiti, gursulu çayları, təbiət abidələri, ekzotik landşaft turizmin inkişafı baxımından rayonun imkanlarının yüksək olması göstərir.

Regionda ekoturizm və açıq hava turizmin təhlilində çox səviyyəli qərar vermə analizi əsasında bu sahadə qabaqcıl beynəlxalq təcrübələri nəzərə almaqla aşağıdakı perspektivləri qeyd etmək olar:

-Ekoloji və açıq hava turizminin təşkili üçün yararlı turizm destinasiyalarının seçilməsi və potensialın çoxkriteriyalı qərarvermə əsasında qiymətləndirilməsi;

-Əhalinin gələcək məşkunlaşmasında ekoloji və açıq hava turizminin təşkili hesabına dəstəyin təmin edilməsi, icmaların və KOB-ların iştirakının təmin edilməsi;

-Ekoloji və açıq hava turizm fəaliyyətlərinin idarə olunmasında dayanıqlı turizm kriteriyalarının tətbiqi, gəlirlərin diversivikasiyası və düzgün bölgüsünün təmin edilməsi;

-Ekoloji və açıq hava turizm fəaliyyətlərinində icmaların və yerli sahibkarlıq subyektlərinin iştirakının dəstəklənməsi;

-Aqro-icma, eko-mədəni, eko-sağlamlıq, eko-etno-mədəni turizm klasterlərinin destinasiya və TRZ üzrə təşkilinin müəyyən edilməsi.

2. Sağlamlıq və termal turizm klasterlərinin formalaşması. Tədqiqat regionunda sağlamlıq turizmi mikroiqlim şəraiti, landşaft amilləri, atmosferin tərkibində oksigenin zənginliyinə görə daha cəlbedici amillərə malikdir. Beynəlxalq turizmdə sağlamlıq məqsədli turist axınları 10-12% təşkil etməklə dinamik olaraq artır. Sağlamlıq turizmdə əsas mövqe tibbi

turizm xidmətlərinə aiddir ki, qeyd olunan sahədə rəqabətin artması ilə müşayiət olunur. Tədqiqat regionunda işğaldan əvvəl sağlamlıq turizm ənənəvi olaraq termal turizm üstünlük təşkil etmişdir ki, hazırda bu sahə beynəlxalq turizmin 5-7% təşkil edir. Termal turizmdə qonşu ölkələrin daha yaxşı infrastruktura malik olması və ənənəvi olaraq bu sahə üzrə ixtisaslaşması tədqiqat bölgəsi üçün geniş rəqabətin olmasını qeyd etmək olar. Bölgədə sağlamlıq turizm potensialına görə Kəlbəcər, Laçın, Şuşa rayonları daha çox seçilir ki, bu da müalicəvi termal və mineral suların olması, iqlim şəraitinin sağlamlığın bərpası üçün əlverişli olmasıdır. Tədqiqat zonasında termal və sağlamlıq turizm klasterləri İstisu, Zülfüqarlı, Soyuqbulaq, Başlıbel (Kəlbəcər rayonu), Minkənd, Əhmədli (Laçın rayonu), Turşsu (Şuşa rayonu) qeyd etmək olar. Regionda sağlamlıq turizmin inkişafında termal turizmlə yanaşı, tibbi və fitoturizmin inkişaf etdirilməsi onun cəlbediciliyi və rəqabət imkanlarının artmasına səbəb olardı. Həmçinin sağlamlıq-istirahət, eko-sağlamlıq turizmin inkişafı mükündür. Regionda sağlamlıq turizm klasterlərinin formalaşmasının əsas strategiyasını qeyd etmək olar:

-Tədqiqat regionunda sağlamlıq turizm məhsullarının formalaşmasında qonşu ölkələrdə oxşar xidmətlərlə rəqabət imkanlarının müəyyən edilməsi və digər turizm növləri ilə birgə fəaliyyətin təşkili;

-Xüsusilə Kəlbəcər rayonunda rəqabət qabiliyyətli sağlamlıq turizm məhsullarının formalaşdırılmasında təbii-iqlim və landşaft özəllikləri, termal və fito müalicə növlərinin birgə tətbiqi;

-Regionda sağlamlıq turizmdə əlçatanlığın təmin edilməsi üçün nəqliyyat infrastrukturunun təkminləşdirilməsi, gələcəkdə Laçın hava limanının imkanlarından istifadə olunması, həmçinin qiymət siyasətində qonşu ölkələrlə rəqabətin nəzərə alınması;

-Sağlamlıq turizmdə yüksək kateqoriyalı otellər və SPA mərkəzləri ilə yanaşı, dörd və üç ulduzlu otellərin, gələcəkdə formalaşacaq bələdiyyələrin tabeliyində müalicə-sağlamlıq mərkəzlərinin təşkili, həmçinin müalicəvi süfrə suyunun istifadəsi;

-Sağlamlıq turizmdə yerli sahibkarlıq subyektlərinin, KOB-ların, icmaların iştirakının təmin olunması üçün investiya təşviqi siyasətinin aparılması, vergi güzəştlərinin tətbiqi, həmçinin icmalarının və aqrotəsərrüfatların təqdim etdiyi qida məhsulları istiqamətində eko-sağlamlıq və fitosağlamlıq turizm imkanlarından istifadə olunması;

Tədqiqat regionunda beynəlxalq təcrübədən istifadə etməklə eko-sağlamlıq, termal müalicə, tibbi turizm modellərinin birgə tətbiqi mükündür. Xüsusilə Çexiya modelindən yararlanmaqla Kəlbəcər rayonunda İstisu, Zülfüqarlı, Laçın rayonunda Minkənd, Şuşa rayonunda Daşaltı və Turşsu yaşayış məntəqələrində iqlim-balneoloji, dağ-iqlim, eko-sağlamlıq, fitosağlamlıq klasterlərinin formalaşdırılması, həmçinin müalicəvi bitkilərin yığılaraq emal olunması, fitoçayların istehsalı mümkündür.

3. Qış turizm klasterləri. Beynəlxalq turizmdə qış turizm mərkəzləri dinamik olaraq inkişaf edir ki, bununda əsas rəqabət mərkəzləri Alp və Şimali Avropa ölkələri, ABŞ və Kanada fərqlənir. Dünya Səyahət və Turizm Şurasının verdiyi illik hesabatlarda qış turizminin beynəlxalq turizmdə payı 30% təşkil edir. Bu sahədə rəqbətin yüksək olması və yeni yaranan destinasiyaların əlçatanlığının artmasını xüsusilə qeyd etmək olar. Bu baxımdan regionda qış turizm klasterlərinin yaradılması və inkişafında qonşu ölkələrlə rəqabət imkanları nəzərə alınmalı, əlçatanlıq təmin edilməli və düzgün qiymət siyasəti aparılmalıdır. Buna görə də, qış

turizmdə əlaçatanlığın təmin edilməsi üçün gecələmə yerlərinin müxtəlifliyi, əlverişli nəqliyyat imkanları, tənzimlənən qiymət siyasətinin tətbiqi vacibdir.

Regionda qış turizminin inkişafı üçün Kəlbəcər, Laçın rayonlarının ərazilərində dəniz səviyyəsindən 1800-2500 m yüksəkliklər daha əlverişli sayılır. Kəlbəcər rayonunda Dəmirçidam, Seyidlər, Cəmilli kəndlərinin ətrafında olan dağ yamacları, Laçın rayonunda Mirik, Ağbulaq, Qarakeçdi kəndlərinin ərafındakı dağ yamacları daha əlverişlidir. Apardığımız çox kriteriyalı qiymətləndirmə əsasında qeyd olunan ərazilərinin təbii şəraiti, yamacların meyilliyi, qarın qalma müddətinin 90 gündən çox və qalınlığının əsasən 15 sm-dən çoxluğu qış turizm üçün əlverişli olduğu müəyyən edilmişdir. Regionda qış turizm klasterlərinin formalaşmasında aşağıdakı tədbirlərin görülməsi vacibdir:

- Qış turizmdə rəqabət imkanlarının artırılması üçün yerləşmə müəssisələrinin müxtəlifliyinin təmin olunması və otellərin kateqoriyalarının müxtəlifliyinin təmin edilməsi;
- Qış turizmdə qonşu ölkələrin təcrübəsin nəzərə almaqla qiymət siyasətinin aparılması;
-Qış turizm infrastrukturunun təşkilində dövlət investiyaları ilə yanaşı, beynəlxalq və yerli donorların cəlb olunmasının təmin edilməsi üçün investiya təşviqi sənədinin hazırlanması;
-Qış turizmdə KOB-ların, digər sahibkarlıq subyektlərinin iştirakının təmin olunması və bu sahədə innovativ həllərin tətbiqi.

4. Mədəni, eko-mədəni və tədbir turizm klasterlərinin yaradılması imkanları. Regionda mədəni turizm klasterlərinin formalaşmasında beynəlxalq turizm bazarında mövcud vəziyyətinin təhlili onu  rəqabət mühitinin formalaşmasın təhlilinə əsaslanır. Beynəlxalq miqyasda mədəni turizm 35-38% təşkil edir ki, bu da geniş bazar imkanlarının olmasını göstərir. Ölkəmizdə isə bu göstərici 14% təşkil etməklə əsasən Bakı, Şəki şəhərləri, DTA tabeliyində olan tarixi-mədəniyyət qoruqlarına gələn turistlərin dinamikası ilə müəyyən edilir. Buna görə də tədqiqat regionunda mədəni, etno-mədəni və eko-mədəni irsin daha çox cəmləndiyi yaşayış məntəqələrində mədəni turizm klasterlərinin formalaşması onların rəqabət qabiliyyətin yüksəldərdir.

Regionda tarixi-mədəni və etno-mədəni turizmin inkişafı üçün zəngin tarixi-memarlıq abidələri, milli irs nümunələri vardır. Tarixi memarlıq abidələri və milli irs nümunələri ilə fərqlənən yaşayış məntəqələri Şuşa, Kəlbəcər, Xocavənd, Laçın rayonlarında daha çox yayılmışdır.  Şuşa şəhərininin tarixi-mədəni irs kimi formalaşması, eko-mədəni və etno-mədəni turizm imkanların xüsusilə qeyd etmək olar ki, bu da onun gələcəkdə mədəni irs destinasiyasına çevrilməsinə imkan verəcəkdir. Bununla yanaşı, Xocavənd rayonunda Tuğ, Azıx, Böyük Tağlar yaşayış mənətəqələrində olan tarixi-memarlıq abidələri, dini abidələr, monastrlar və s. mədəni turizmin inkişafına təkan verə bilər.

Mədəni turizmin inkişafında əsas turizm klasterləri Şuşa şəhəri, Xocavənddə Tuğ, Böyük Tağlar və Azıx kəndləri, Ağdam rayonun Şahbulaq, Kəlbəcər rayonunda Xudavəng və Ağdərə rayonunda Gəncəsər tarixi-dinin abidələrinin yerləşdiyi yaşayış məntəqələri kimi formalaşa bilər. Mədəni turizmin klasterlərinin formalaşmasında ərazinin təbii coğrafi şəritin, mədəni irsin yayılmasını, qeyri-maddi irs nümunələrinin nəzərə alınması vacibdir.

Bölgədə müxtəlif beynəlxalq və yerli kütləvi tədbirlərin keçirilməsi tədbir turizm klasterinin yaranmasına imkan verir. Xüsusilə, Şuşa şəhərində bir çox beynəlxalq və yerli tədbirlərin keçirilməsi turizmin inkişafına təkan vermişdir. Bir çox beynəlxalq və yerli tədbirlərin mütəmadi olaraq keçirilməsi Şuşa şəhərinin tədbir turizm klasterinin formalaşmasına səbəb

| | |
|---|---|
| | olacaqdır. Eyni zamanda, Şuşa şəhərinin kreativ turizm mərkəzi kimi formalaşması üçün ənənəvi sənətkarlıq, mədəni irs potensialına malikdir. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>Lahiyə üzrə aparılmış tədqiqatlar və alınmış elmi nəticələr cari rüb üzrə yerinə yetirilmişdir və 90% təşkil edir. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | *(burada doldurmalı)*<br>Cari rüb üzrə aşağıdakı elmi nəticələr alınmışdır:<br>-Tədqiqat regionunda turizm növləri üzrə klasterlər müəyyən edilmiş və əsaslandırılmışdır;<br>-Turizm klasterlərinin rəqabət imkanları beynəlxalq turizm bazarının təhlili əsasında müəyyən edilmişdir;<br>-Turizm klasterlərinin formalaşdırılması üçün təklif olunan yaşayış məntəqələrinin potensialı çoxkriteriyalı qərar vermə əsasında qiymətləndirilməsi aparılmışdır;<br>-Turizm klasterlərinin formalaşmasında bu sahədə olan ən yaxşı təcrübələr təhlil edilmişdir. |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Lahiyənin yerinə yetilməsində statistik təhlil, klaster, müqayisə, çöl-tədqiqat metodlarından istifadə edilmişdir. |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>Cari rüb üzrə bir məqalə çapa göndərilmiş və qəbul edilmişdir.<br>1. V.S. Dargahov, S.A. Talibov, Q.V. Mammadov, R.İ. Ahmadov. Directions and perspectives of organizing Tourism Recreation Zones in Karabakh and<br>Eastern Zangezur economic regions//REVİSTA UNİVERSİDAD Y SOCİEDAD, journal of Hospitality and Tourism Management<br>ISSN: 1447—6770 E-ISSN: 1839-5260 |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>yoxdur |

| | |
|---|---|
| | |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Lahiyə üzrə DTA, ETSN, DTA tabeliyində olan Qoruqların idarə etmə mərkəzi, Qarabağ regional turizm idarəsi ilə məlumat mübadiləsi edilmişdir. |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **15** | Sərgilərdə iştirak |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)*<br>yoxdur |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)*<br>https://azvision.az/news/364034/ internet xəbər saytına müsabibə. Qarabağa qayıdanlar üçün ekoturizmə dair maarifləndirici lahiyələr həyata keçirilməlidir. |

**Layihə rəhbərinin imzası ___________________Əhmədov Rəşad İsmayıl oğlu**

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.